**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№** 3-44/3-9-8/2024

**Bakı şəhəri** "12" iyul **2024-cü il**

**Karantin tətbiq edilən zərərli orqanizm aşkar edilmiş kartofçuluq təsərrüfatında bitki mühafizəsi tədbirlərinin görülməsi haqqında**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) Lənkəran-Astara regional bölməsinin Bitki sağlamlığı və fitosanitar nəzarəti sektorunun əməkdaşları tərəfindən Cəlilabad rayonunun Qarazəncir kəndində yerləşən fiziki şəxs Novruzov Gülməmməd Barat oğluna məxsus kartofçuluq təsərrüfatında (2.5 ha) (bundan sonra – sirayətlənmiş sahə) fitosanitar müşahidələr aparılmış, götürülmüş kartof və torpaq nümunələri laborator müayinələrə cəlb edilmişdir. Laborator ekspertizanın nəticələrinə əsasən, götürülən kartof nümunəsində 2024-cü il 13 iyun tarixli 4N00LGL/LAB16-24002-T-002 nömrəli sınaq protokoluna əsasən karantin tətbiq edilən kartofun qonur çürümə (*Ralstonia solanacearum*) xəstəlik törədicisinin mövcudluğu təsdiqlənmişdir.

Qeyd olunanlara əsasən, bitki və bitkiçilik məhsullarında zərərli orqanizmlərin kütləvi yayılmasının qarşısının alınmasına, xəstəliklərin aradan qaldırılmasına, məhsul itkisinə yol verilməməsinə, ətraf mühitin və əhalinin sağlamlığının qorunmasına yönəldilmiş bitki mühafizəsi tədbirlərinin həyata keçirilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-12-ci yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** Agentliyin Lənkəran-Astara regional bölməsinin Bitki sağlamlığı və fitosanitar nəzarəti sektorunun əməkdaşlarına tapşırılsın:

1.1. Cəlilabad rayonu ərazisində kartofun qonur çürümə xəstəliyi ilə sirayətlənmiş ərazilərin sərhədləri müəyyən edilsin;

1.2. sirayətlənmiş sahədə istehsal olunan kartofun əkin materialı kimi istifadəsinə icazə verilməsin;

1.3. sirayətlənmiş sahənin yüksək risk daşıdığı nəzərə alınaraq fitosanitar müşahidələrin intensivliyi artırılsın, həmin sahədən il ərzində ən azı 3 (üç) dəfə nümunə götürülərək (kartof yumrusu və ya torpaq) müvafiq parametrə görə laborator müayinəyə cəlb edilsin;

1.4. sağlam əkin materialından istifadə istiqamətində nəzarət gücləndirilsin.

**2.** Cəlilabad rayonunun Qarazəncir kəndində yerləşən fiziki şəxs Novruzov Gülməmməd Barat oğluna məxsus kartofçuluq təsərrüfatı ən azı 3 (üç) il ardıcıl olaraq Milli Monitorinq Planına

daxil edilsin və digər zərərli orqanizmlərlə yanaşı, kartofun qonur çürümə bakteriyasına görə də laborator müayinələrə cəlb edilsin.

**3.** Sirayətlənmiş sahədə ən azı 3 (üç) il müddətində kartofun qonur çürümə bakteriyasının əsas sahib bitkiləri – kartof, pomidor, badımcan, yerfındığı, bibər və pambıq kimi bitkilərin buğda, yonca, noxud kimi bitkilərlə əvəzlənərək növbəli əkinin tətbiqinə üstünlük verilsin.

**4.** Sınaq protokolunda kartofun qonur çürüməsinin mövcudluğu təsdiqlənmiş məhsulun regionlararası daşınması qadağan edilsin, məhsulun yalnız həmin region daxilində satışına icazə verilsin.

**5.** Sirayətlənmiş sahədə istifadə edilən texnika və alətlər yalnız təmizlənərək dezinfeksiya edildikdən sonra digər sahələrdə istifadəsinə icazə verilsin.

**6.** Sirayətlənmiş sahədə əvvəlki əkindən torpaqda qalan kartof yumruları və onların cücərtiləri tamamilə sahədən təmizlənsin və məhv edilsin.

**7.** Bakteriyanın su vasitəsilə yayıla bilməsi nəzərə alınaraq digər sahələrin suvarılması üçün istifadə edilən su kanallarının sirayətlənmiş sahədən keçməməsi, sahənin və su kanalının ətrafının alaq otlarından, xüsusən də qara quşüzümü (*Solanum nigrum*) və gicitkəndən (*Urtica dioica*) təmizlənməsi təmin edilsin.

**8.** Sirayətlənmiş sahənin ətrafındakı 3 km radiusdakı ərazi bufer zona olaraq müəyyənləşdirilsin, sirayətlənmiş sahə üçün tətbiq edilən tədbirlər bu zonada olan əkin sahələrində də tətbiq edilsin.

**9.** Cəlilabad rayonu ərazisində kartof toxumçuluğu ilə məşğul olan təsərrüfatlarda torpaqların bakteriya mənşəli xəstəliklər və bitki nematodlarına görə müayinələrə cəlb edilməsi diqqətdə saxlanılsın.

**10.** Bu Qərarın icrasına nəzarət Agentliyin Lənkəran-Astara regional bölməsi tərəfindən həyata keçirilsin.

**11.** Bu Qərarın icrasından yayınan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

**12.** Agentlik Aparatının Bitki sağlamlığı və bioloji təhlükəsizlik şöbəsi bu Qərarın aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**Bitki sağlamlığı və bioloji təhlükəsizlik**
**şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət fitosanitar müfəttişi** **Taleh Şəmiyev**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi * Food Safety Agency of the Republic of Azerbaijan
Baş Dövlət Fitosanitar Müfəttişi
Chief Phytosanitary Officer